UOT 341
https://doi.org/10.59849/2710-0820.2024.1.267

**Hafiz Musayev**
*hüquq üzrə fəlsəfə doktoru*
*Azərbaycan*

# BEYNƏLXALQ TERRORÇULUQLA MÜBARİZƏDƏ REGİONAL ƏMƏKDAŞLIQ

***Açar sözlər:*** *beynəlxalq terrorçuluq, siyasi terrorçuluq, milli terrorçuluq, irqi terrorçuluq, dini terrorçuluq, separatçılıq.*

Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev demişdir: "Müasir dövrdə terrorçuluq bütün ölkələri hədəfə çevirə biləcəyi üçün qlobal problemdir. Terrorçuluq təhlükəsinin tamamilə aradan qaldırılması və gələcəkdə heç bir xalqın, heç bir dövlətin belə dəhşətli sınaqlara və sarsıntılara məruz qalmaması üçün beynəlxalq ictimaiyyət, bütün dünya xalqları və dövlətləri səylərini birləşdirməli, terrorçuluğa qarşı barışmaz mübarizə əzmini əməli işdə və sıx əməkdaşlıqla yerinə yetirməlidirlər. Azərbaycan bu istiqamətdə öz üzərinə düşən öhdəlikləri bundan sonra da dönmədən yerinə yetirəcəyini və terrora qarşı mübarizədə dünya birliyinin səylərini birmənalı şəkildə dəstəkləyəcəyini bəyan edir" [1].

Beynəlxalq terrorçuluq beynəlxalq münasibətlərin normal gedişinə təhlükə qlobal problem olmaqla dünya siyasətinin dayanıqlı amilinə çevrilmişdir. Beynəxalq terrorçuluğun meydana gəlməsi bir sıra, o cümlədən siyasi, milli, irqi, və dini amillərlə bağlı olmuşdur. Onlar əsasən XX əsrin ikinci yarısından formalaşmış və inkişaf etmişdir.

Siyasi terrorçuluq ölkədə hakim rejimi güc yolu ilə devirmək məqsədilə həyata keçirilən terrorçuluqdur. Onun üçün xarakterik xüsusiyyət ondan ibarətdir ki, o, dar istiqamətdə təzahür edir: onun qəsd obyekti regionun konkret ölkəsinin rəhbəri və onun yaxın ətrafı olur.

Siyasi terrorçuluğun xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onun rəhbər orqanı bir qayda olaraq müxalifətin ölkəsində olan rejimə düşmənçilik mövqeyi nümayiş edirən cəhd göstərmişlər.

Ayrı-ayrı dövlətlərin regional səviyyədə rəqabət aparması və onların maraqlarının toqquşması şəraitində millətçiliyin radikal təzahürləri kifayət qədər tez bir vaxtda dövlət daxili münaqişənin çərçivəsindən kənara çıxmaqla, aşkar və ya gizli şəkildə xarici aləmə yol açır. Bununla da, daxili millətçi radikallıq beynəlxalq terrorçu təşkilatlar üçün geniş fəaliyyət meydanı yaratmaqla, beynəlxalq münaqişə əlamətləri alır və köhnə milli münaqişələr vəziyyətin mütəmadi olaraq gərginləşərək residiv xarakter almasına gətirib çıxarır. Bbuna misal olaraq radikal millətçi təşkilatların və bir çox hallarda isə Ermənistan dövlətinin bilavasitə iştirakı ilə Türkiyə və Azərbaycan əleyhinə həyata keçirilən terrorçuluq əməllərini göstərmək olar.

Ölkədə yerləşir. Məsələn, Liviya Xalq Qurtuluş Cəbhəsinin Səudiyyə Ərəbistanında xüsusi hazırlıq keşmiş döyüşçüləri M.Kəddafinin öldürülməsi ilə başlayacaq dövlət çevirilişini həyata keçirmək üçün 1984-cü ildə Liviyaya göndərilmişdir. 1992-ci ildə onlar yenidən, bu dəfə Amerika Birləşmiş Ştatlarında hərbi hazırlıq keçmiş döyüşçülərdən istifadə edərək Liviyada qiyam qaldırmağa

Millətçi terrorçular özlərinin etnik qrupları üçün ayrıca, bəzən ikinci dövlətin yaradılmasını qarşılarına məqsəd qoyur. Onlar bunu "milli qurtuluş", yaxud millətlərin öz müqəddəratını müəyyənetmə adlandırırlar. Buna misal olaraq Daşnaksutyun partiyasını, Türkiyə ərazisində öz dövlətini yaratmaq istəyən Kürdüstan fəhlə partiyasını göstərmək olar.

Dini terrorçular zor tətbiqinin guya Allah tərəfindən müəyyənləşdirildiyini əsas götürürlər. Bu növ terrorçuluq digər terror növlərinə nisbətən daha geniş yayılmışdır. Belə ki, 90-cı illərin ortalarından ən məşhur 56 terror təşkilatından demək olar ki, yarısı dini mötivlərlə bağlı olduqlarını bəyan etmişlər. Bu kateqoriya terrorçuluğa Usama Bin Ladenin "əl-Qaidə" təşki-

latı, Livan şiələrinin "Hizbullah" qrupu, radikal yəhudi təşkilatı olan Meera Kahan, Amerikanın bir sıra ku-klus-klan "xalq drujinaları", Yapon "Aum Senrike" sektası, "Cama islamiyyə", "İslam cihadı", İslam Qurtuluş Cəbhəsi", "Silahlı islam qruplaşması", İordaniyada "Allah döyüşçüləri", Liviyada "Döyüşkən islam qruplaşması", "İslam cihadı", Sudanda "Milli islam cəbhəsi", Yəməndə "Əl-İslax" və bir sıra təşkilatlarını aid etmək olar.

Etnik rəngli terrorçuluğa misal kimi Şimali İrlandiyada on illərlə davam edən icmalararası müharibəni göstərmək olar. İrqi amillər və bu əsasda ziddiyətlər terrorçuluq təzahürlərinin artmasında əhəmiyyətli rol oynayır. İrqi əsasda zorakılığa dünyanın müxtəlif ölkələrində, əsasən də Amerika Birləşmiş Ştatlarında tez-tez rast gəlmək olur. Enik separatizmi sosial-siyasi hadisə kimi qəbul etmək lazımdır [5].

Terrorçuluğu tam anlamaq üçün birinci növbədə onun xarici təzahürlərini deyil, kökünü öyrənmək lazımdır. Terrorun səbəbləri şox vaxt səhv qəbul olunur. Belə bir fikir geniş yayılmışdır ki, terrorçuluq ədalətsizliyə qarşı hərəkətdir, terrorçular isə dözülməz şəraitdən təngə gəlmiş insanlardır (yoxsulluq, ümidsizlik, sosial və siyasi sıxıntı). Bu məntiqdən yanaşsaq, terrorçuluğun aradan qaldırılması və ya heç olmazsa onun azaldılmasının yeganə yolu terrorçuluğu kobud güc yolu ilə boğmağa çalışmaq yox, onun mənbəyinin, terrorçulara sakitlik veməyən yaranın kəsib atılmasıdır. Bir amerikalı filoloq demişdir: "Bataqlığı qurudun, ağcaqanadlar özləri yox olacaqlar" [2].

Terrorçuluq "yeni təhdidlər" triadasına aid edilir [6,48]. Beynəlxalq terrorun əsas subyektləri kimi hazırki dövrdə çıxış edir:

– radikal siyasi hərəkatlar;

– ekstremist niyyətli milli və seperatist axınlar;

– cinayətkar mafia qrupları;

– bir sıra dövlətlərin xüsusi səlahiyyətli qüvvələri;

– totalitar və ya yarıfaşist antidemokratik siyasi rejimlər [7,102].

Soyuq Müharibədən sonra dəyişikliyə uğrayan, beynəlxalq təhlükəsizlik baxımından əhəmiyyətli bir təhdid halına gələn terrorçuluğu, bu tarixdən etibarən fəaliyyət sahəsini milli sərhədlərin kənarına daşımış və bütün dünyaya təsir edən bir gücə çatmışdır [8,s.98]. Beynəlxalq terrorçuluq, birdən çox ölkənin torpaqlarını hədəfləyən, beynəlxalq səviyyədə təşkil oluna bilən və yenə eyni səviyyədə hərəkət edə bilən, beynəlxalq nəticələr doğuran bir şiddət, ya da şiddət ehtiva edən bir hərəkət kimi izah edilir [9,s.77]. Müasir terrorçuluq qlobal xarakter daşımaqla insanlığın mövcudluğuna təhlükə kimi çıxış edir [10,35]. Digər bir tədqiqatçı B.Xoffman hesab edir ki, terrorçuluğu digər cinayət növlərindən fərqləndirmək lazımdır [12,47].

Terrorçuluq müxtəlif ölkələrin konsepsiyalarında öz əksini tapmışdır. Belə ki, Rusiya Federasiyasının milli təhlükəsizlik konsepsiyasında terrorçuluğun miqyasının genişlənməsi əsas təhdidlərdən sayılır [11].

Terrorçuluğa qarşı mübarizə üzrə beynəlxalq əməkdaşlıq sahəsində bir sıra işlər görülmüşdür. Lakin aparılmış müşahidə və təhlillər məhz beynəlxalq əməkdaşlıq sahəsində bir sıra fundamental hüquqi problemlərin, kazusların mövcudluğunu ortaya çıxarır.

Bu cür qlobal xarakterli kazuslar müvafiq sahədə beynəlxalq əməkdaşlığın birbaşa özülünü zədələməklə yanaşı, antiterrorçuluq fəaliyyətlərinin səmərəliliyi-nin həddindən artıq azalmasına səbəb olur. İlk növbədə beynəlxalq terrorçuluğun hamılıqla qəbul olunmuş anlayışını vermək məqsədilə uzun müddətdir ki, aparılan danışıqların hələ də nəticəsiz qalması beynəlxalq əməkdaşlığa mənfi təsir göstərir. Qeyd etmək lazımdır ki, bəzi müəlliflər beynəlxalq terrorçuluq anlayışının verilməsini, ümumiyyətlə, qeyri-mümkün hesab edirlər. Bu mövqenin əksinə olan mütəxəssislərin fikrinə görə, terrorçuluğa qarşı mübarizənin beynəlxalq hüquqi əsaslarının formalaşdırılması sahəsində artıq müəyyən nailiyyətlər əldə edilmiş, ikili yanaşma (terrorçu fəaliyyətlərin dairəsinin müəyyənləşdirilməsi və bu fenomen qüvvənin ümumi bəyanatlar əsasında yekdilliklə pislənməsi) prinsipi əsasında problemin həlli üçün səy göstərilmişdir. Dünya birliyinin beynəlxalq terrorçuluq cinayətinə qarşı məqsədyönlü mübarizə aparmaq əzmində olmasının praktiki təzahürü kimi Birləşmiş Millətlər Təşkilatının bu cinayətlə əlaqədar qəbul etdiyi 13 konvensiya ilə yanaşı, beynəlxalq terrorçuluq cinayətinə qarşı yaradılmış regional sistemləri göstərmək olar. Bunlara Yaxın

Şərq, İslam Konfransı Təşkilatına daxil olan ölkəkələr, Amerika, Afrika, Cənubi Asiya, Müstəqil Dövlətlər Birliyi ölkələri və s. üzrə imzalanaraq qüvvəyə minmiş xüsusi saziş, konvensiya, müqavilə və protokollar daxildir. Məsələn, BMT Baş Məclisi tərəfindən 1994-cü ildə qəbul edilmiş "Beynəlxalq terrorçuluğun aradan qaldırılması tədbirləri haqqında" Bəyannamədə "harada və kim tərəfindən törədilməsindən asılı olmayaraq, cinayət əməli və bəraətsiz əməl kimi, bütün terrorçuluq aktları, metodları və təcrübələri" pislənilir.

BMT çərçivəsində görülmüş işlərlə paralel surətdə əksər regional təşkilatlar tərəfindən terrorçuluğa qarşı mübarizəyə həsr edilmiş sənədlər hazırlanaraq qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, universal konvensiyalardan fərqli olaraq, bir sıra regional sənədlərdə terrorçuluğun anlayışı verilir, onun əsas elementləri göstərilir. Eyni zamanda terrorçuluğa qarşı mübarizə sahəsində konkret tədbirləri görmək məqsədilə son zamanlar bəzi beynəlxalq təşkilatların təcrübəsində fəaliyyət planları (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 2001-ci il tarixli "Terrorçuluğa qarşı mübarizə üzrə" fəaliyyət planı), çərçivə qərarları (Avropa İttifaqı Şurasının 2002-ci il tarixli "Terrorçuluğa qarşı mübarizə üzrə" çərçivə qərarı) kimi sənədlərdən istifadə olunur.

Sadalanan faktlar beynəlxalq terrorçuluğun anlayışı ilə bağlı problemin həlli istiqamətində mühüm addımların atıldığına dəlalət edir. Məhz bu məqamları nəzərə alaraq, Avropa İttifaqı Şurasının 2002-ci il tarixli Çərçivə Qərarının 1 (l)-ci maddəsinin, habelə "Terrorçuluğun qarşısının alınması haqqında" Avropa Şurası Konvensiyasının Preambulasının sonuncu paraqrafının müddəaları əsasında beynəlxalq terrorçuluq anlayışı aşağıdakı kimi verilə bilər: "Beynəlxalq terrorçuluq - siyasi, iqtisadi, sosial, dini, mənəvi, mədəni və s. sahələrdə maraqlarını təmin etmək məqsədilə hər hansı bir şəxs, qrup və yaxud müvafiq orqanların əməkdaşları vasitəsilə dövlət tərəfindən ictimai təhlükəsizliyin pozulması, əhalinin vahimə içərisində saxlanılması, dövlət hakimiyyəti orqanlarının və beynəlxalq təşkilatların hərəkət və ya hərəkətsizlik göstərməyə məcbur edilməsi yolu ilə hər hansı bir ölkənin və ya beynəlxalq təşkilatın fundamental siyasi, konstitusiya, iqtisadi və sosial strukturlarının sabit fəaliyyətinin pozulmasına və yaxud məhvinə yönəldilmiş hərəkətlərin bir neçə dövlətin ərazisində və ya bir neçə dövlətin maraqlarına zərər vura biləcək şəkildə törədilməsi, habelə bu cür hərəkətlərin törədiləcəyi ilə başa çatan bir hədələmədir".

Müşahidələr göstərir ki, beynəlxalq hüququn öz müqəddəratını müəyyən etmək prinsipindən sui-istifadə yolu ilə milli, etnik, dini və s. örtük altında dövlətlərin beynəlxalq hüquqla təsbit edilmiş ərazilərini parçalamağa yönəldilmiş separatçı fəaliyyətlər də beynəlxalq terrorçuluğun mənbəyidir. Separatçılıq fəaliyyəti nəticəsində formalaşan beynəlxalq və dövlət nəzarətindən kənar ərazilər - "boz zonalar" (grey zones) terrorçu düşərgələrinin yerləşdirilməsi, axtarışda olan terrorçulara sığınacaq verilməsi, yeni üzvlərə təlimlərin keçirilməsi, habelə terror aktların planlaşdırılması və törədilməsi üçün əlverişli zəmin və şərait yaratmaqla yanaşı, dünyanın müxtəlif regionlarına "terror ixracı"nda böyük rol oynayır.

Beynəlxalq əməkdaşlığı önləyən digər bir problem beynəlxalq aləmdə İslam dininə qarşı mənfi münasibətlə bağlıdır. Beynəlxalq terrorçuluğun dinlə hər hansı formada əlaqələndirilməsi, xüsusilə İslam dininin terrorçuluq ideyalarını özündə əks etdirməsi ilə bağlı yanlış fikirlərin səsləndirilməsi antiterror koalisiyasının fəaliyyətinə mənfi təsir göstərməyə bilməz. Təəssüflə vurğulamaq lazımdır ki, bir sıra ölkələrin diplomatiyasında, beynəlxalq hüquq doktrinasında və təcrübəsində, xüsusilə kütləvi informasiya vasitələrində islamı terrorçuluqla bağlamaq fikri vurğulanır. Bu amil "əsas hədəflin beynəlxalq terrorçuluğun zərbələrdən yayınmasına, güclənməsinə, genişlənməsinə və qarşısıalınmaz qüvvəyə çevrilməsinə səbəb olur.

Bu gün əsl islami dəyərlərdən xəbəri olmayan və onun fərqinə varmayan Qərb dövlətləri və Amerika Birləşmiş Ştatlarının bir sıra məlumatsız alimləri, kütləvi informasiya vasitələrinin nümayəndələri İslamı terrorla eyniləşdirirlər ki, bu da bu dinə etiqad edən bir milyarddan artıq insana qarşı haqsızlıqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslami dəyərlərdən danışarkən demişdir: "Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən

siyasi dairələr tərfindən islamı terrorçuluqla eyniləşdirmək cəhdləri bizi çox narahat edir və hiddətləndirir. Biz buna hec ür imkan verə bilmərik. İslamı terrorçuluqla eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorçu təşkilatları bizə qarşı 373-dən çox terror aktı törətmişdir. Bu terror aktları nəticəsində 2000-dən artıq azərbaycanlıhəlak olmuşdur. Ancaq biz bu terrorçu təşkilattları hər hansı bir dinə bağlamırıq. Bu düzgün deyildir. Terrorçuluğun nə dini dini var, nə də milliyəti. Ona görə biz bu məsələlərə etirazımızı daha da inamla bildirməliyik, öz sözümmüzü deməliyik. Eyni zamanda, gərək bütün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq döğuran bu mənfi meylə münasibətimizi bildirək, öz hərəkətimizlə bunun qarşısını alaq" [3].

YUNESKO-nun 20 oktyabr 2001-ci ildə Paris şəhərində keçirilən 31-ci sessiyasında qəbul olunmuşş Qətnamədə terrorçuluğun hər hansı konkret bir dinlə, dini inamla və ya milliyyətlə əlaqəsi qəti şəkildə rədd edilmiş və qeyd olunmuşdur ki, terrorçuluğun bəşəriyyətə hazırkı meydan oxuması ona qarşı Birləşmiş Millətlər Təşkilatı sisteminin bütün təşkilatlarının ardıcıl və əlaqələndirilmiş şəkildə cavab verilməsini tələb edir [4].

Dünya birliyi həm milli qanunvericilik səviyyəsində, həm də beynəlxalq hüquq münasibətləri çərçivəsində terrorizm və separatizmdən hüquqi müdafiə üçün bir sıra ciddi tədbirlər görmüşdür. Bütün bu sənədlərdə terrorizm və təcavüzkar separatizm eyni bir fəaliyyətin təzahürləri kimi qiymətləndirilir. Bu yanaşma BMT-nin bir sıra hüquqi aktlarında, o cümlədən "Beynəlxalq terrorizmin ləğv edilməsi tədbirləri haqqında" Bəyannamədə, "Bomba terrorizmi ilə mübarizə haqqında", "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" və digər beynəlxalq konvensiyalarda öz əksini tapmışdır. Ermənistan istisna olmaqla, MDB dövlətlərinin rəhbərləri 1994-cü il aprelin 15-də Moskvada "MDB üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət edilməsi haqqında" Bəyannaməni və 1995-ci il fevralın 10-da Almatıda "Müstəqil Dövlətlər Birliyində sülhün və sabitliyin qorunması haqqında" Memorandumu imzalayaraq, separatizm probleminə öz münasibətlərini bildirmişlər.

Bəşəriyyətin dinamik inkişafı, sabitlik, dövlətlərin təhlükəsizliyi, suverenliyi və ərazi bütövlüyü üçün ciddi terror təhlükələrinin əsas mənbələri, vasitələri, forma və xüsusiyyətləri məlumdur. Dini, etnik və siyasi pərdə altında terrorizm, separatizm və digər ekstremist fəaliyyətlə mübarizə beynəlxalq hüququn əsas norma və prinsiplərinə ciddi əməl edilməsi yolu ilə və bu gün mövcud olan beynəlxalq hüquq mexanizmləri çərçivəsində mümkündür. Belə mexanizmlərin, zəruri hüquqi bazanın guya olmadığı barədə səslənən yanlış fikirlər, problemin süni şəkildə siyasiləşdirilməsi terrorizmlə mübarizə sahəsində beynəlxalq əməkdaşlıqda iştirak etməmək niyyətinə bəraət qazandırmaq üçün göstərilən cəhdlərdən başqa bir şey deyildir.

Bütün bunlar beynəlxalq əməkdaşlığın mövcud mexanizmlərinin təkmilləşdirilməsini və yenilərinin yaradılmasını, bu prosesin daha da gücləndirilməsini zəruri edir. Diqqət ilk növbədə terrorizmlə mübarizədə universal institusional və hüquqi əsasların formalaşdırılmasına, "terrorçuluq", "təcavüzkar separatçılıq", "dini ekstremizm" və digər anlayışların hüquqi tərifləri kimi işlənib hazırlanmasına və onların hər bir dövlət tərəfindən qəbul edilməsinə yönəlməlidir. Azərbaycan bütün bu istiqamətlər üzrə əməkdaşlığa hazırdır.

## Ədəbiyyat

1. H. Əliyev. Demokratik cəmiyyətdə dinin rolu və inam: terrorçuluğa və ekstremizmə qarşı mübarizə yollarının axtarılması. Beynəlxalq konfrasda nitqi. Bakı, 10 oktyabr 2002-ci il.
2. Beynəlxalq terrorizmin yaranma səbəbləri və tribologiyası. Hərbi bilik №3, 2008-ci il.
3. İlham Əliyev. Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" beynəlxalq konfrans. 18 mart 2013-cü il.
4. YUNESKO-nun Paris şəhərində keçirilən 31-ci sessiyası. 20 oktyabr 2001-ci il.
5. Nağıyev N.M. Milli və beynəlxalq təhlükəsizlik. Bakı - 2010.
6. Nağıyev N.M. Milli təhlükəsizlik nəzəriyyəsinin əsasları. Bakı-2007.

7. Volkan V. (2010). Büyük Grup Kimliği ve şiddet, Terörün Sosyal Psikolojisi, M. Sever, H. Cinoğlu, O. Başıbüyük (Ed.), Ankara: Polis Akademisi Yayınları.
8. Yalçiner, Serhan. "Soğuk Savaş Sonrası Uluslar Arası Terörizmin Dönüşümü ve Terörizmle Mücadele", Süleyman Demirel Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Yıl: 2, Sayı: 4, 2006.
9. Topal, Ahmet Hamdi. "Uluslararası Terörizm ve Uluslararası Ceza Mahkemesi", Uluslararası Hukuk ve Politika, Cilt:1, No:3, 2005.
10. Горбунов, К.Г. Терроризм: социально-психологическое исследование: монография / К.Г. Горбунов. – Омск: Изд-во Ом. гос. ун-та, 2010.
11. Концепция национальной безопасности Российской Федерации, 2021.
12. Хоффман Б. Терроризм – взгляд изнутри. – М.: Ультра. Культура, 2003.

**Резюме**

**Хафиз Мусаев**

**Региональное сотрудничество в области международного терроризма**

Международный терроризм - одно из страшных состояний, создающее угрозу нормальному ходу международных отношений, оказывающее разрушительное воздействие на нормы международного права. В зависимости от характера и масштабов организации терроризм можно назвать "непрерывной тактической формой борьбы за любую цель". Иногда эта борьба может перерасти в небольшие войны, одинаково опасные для всех государств, независимо от их масштабов. Международный терроризм осуществляется с целью выполнения требований политического, экономического, социального, психологического и иного характера. Мировое сообщество в результате сотрудничества в борьбе с международным терроризмом приняло ряд серьезных мер правовой защиты от терроризма и сепаратизма как на уровне национального законодательства, так и в рамках международных правоотношений.

***Ключевые слова:*** *международный терроризм, политический терроризм, национальный терроризм, расовый терроризм, религиозный терроризм, сепаратизм.*

**Summary**

**Hafiz Musaev**

**The regional cooperation in the field of international terrorism**

International terrorism is one of the frightening phenomena that endanger the normal course of international relations and have a devastating effect on the rules of international law. Depending on the nature and scale of the organization, terrorism can be called "a continuous tactical form of struggle for any purpose." Sometimes this struggle can turn into small wars, becoming equally dangerous for all states, regardless of their scope. International terrorism is carried out in order to fulfill the requirements of a political, economic, social, psychological and other nature. As a result of its cooperation in the fight against international terrorism, the world community has taken a number of serious measures for legal protection against terrorism and separatism both at the level of national legislation and within the framework of international legal relations.

***Keywords:*** *international terrorism, politikal terrorism, national terrorism, rasial terrorism, religious terrorism, separatizm.*